https://doi.org/10.59849/3006-2403.2024.2.83

*Təranə VERDİYEVA*
*AMEA-nın Gəncə Bölməsi Nizami Gəncəvi Mərkəzi*
*E-mail: tarana.verdiyeva.83@mail.ru*

# XX ƏSR VƏ ÇAĞDAŞ AZƏRBAYCAN POEZİYASINDA GƏNCƏ VƏ GƏNCƏLİ NİZAMİ

*Açar sözlər:* Nizami Gəncəvi, poeziya, şair, ədəbi mühit, rəmz

Azərbaycanın şanlı tarixini, ulu keçmişini xatırladan Gəncə hələ çox qədimlərdən şairlər vətəni kimi tanınmışdır. Əbülüla Gəncəvisi, Məhsətisi, Nizami Gəncəvisi ilə bütün dünyaya səs salan qədim Gəncədə ədəbi mühit hər zaman münbit və zəngin olmuşdur. Böyük mütəfəkkirlərin yaratdığı ədəbi məktəb bütün dövrlərdə yeni istedadların meydana gəlməsinə zəmin yaratmışdır. Ədəbi mühitinin zənginliyi, yazıb-yaradan görkəmli qələm sahibləri, böyük mütəfəkkirləri ilə seçilən Gəncə həm də özünün coğrafi mövqeyi, misilsiz mədəni abidələri ilə də yadellilərin diqqətini özünə cəlb etmişdir. Təsadüfi deyil ki, tarixə nəzər salanda dönə-dönə basqına məruz qalan və müharibə meydanı kimi Gəncə şəhərinin adına rast gəlirik. Gəncəni sarsan, dahi şair Nizami Gəncəvinin təbiri ilə desək, xəzinəsini yerlə yeksan eyləyən olaylardan biri də başından keçən təbii fəlakətlər olmuşdur. Lakin bütün bunlara baxmayaraq bu fəlakətlərin yaratdığı qaranlığı yenidən nurlandıran hər zaman incə zövqü, dərin zəkası və əməyi ilə seçilən Gəncə sənətkarları olmuşdur.

Sözü ilə Gəncənin üzərinə nur saçan dahilərdən biri də Nizami idi. O, yaratdığı “Xəmsə”silə Gəncəyə itirdiklərindən də dəyərli xəzinə bəxş etdi. Nizami zəngin yaradıcılığında Hindistan və Ərəbistan dünyasını, rus, yunan, hind motivlərini əks etdirmiş, böyük tarixi obrazlar yaratmışdır. Ancaq nədən yazırsa yazsın, öz doğma yurdundan ayrılmamış, vətəninin tarixini, təbiətini, insanlarını böyük ustalıqla tərənnüm etmişdir [16, s. 102].

Bəşər mədəniyyəti tarixində özünəməxsus mövqeyi olan, əsərləri dünya şeir xəzinəsinin nadir inciləri sayılan Nizami Gəncəvi Azərbaycan ictimai-bədii fikrinin inkişafında yeni, orijinal bir mərhələ təşkil edir [2, s. 470]. Böyük şairin bəşəri ideyalar, silsilə müsbət qadın portretləri, zəhmətkeş, halal adamlara sevgi və məhəbbətlə zəngin olan ölməz “Xəmsə”si təkcə onu yox, həm də Gəncəni, Azərbaycanı bütün Şərqdə tanıtmış, dünya poeziyasında özünəməxsus yer tutmuşdur. Nizami insanları halallığa, zəhmətlə yaşamağa çağırır, xəsis adamlarla bir süfrədə əyləşməyi, alçalmağı heç kəsə rəva görməyərək belə deyir:

*Torpaq ye, çörəyini xəsisin yemə ancaq,*
*Torpaq olma, varlığın əzilib tapdanacaq.*
*Öz halal zəhmətinlə namuslu insan sayıl,*
*Hər yetənə alçalma, əl açıb olma sail* [7, s.90].

Böyük şair bədxah adamların ilqarsız, kəmfürsət olduqlarını göstərməklə bərabər belələrinin onu alçaltmaq istədiklərini də dilə gətirir:

*Gəl bu əsrin bir neçə bədnamına qıl nəzər,*
*Onlar ilqarları tək məni sındırmaq istər.*
*Mən sınsam da göydəki ay kimiyəm hər zaman,*
*Yox, sınmaram, sınsam da qiymətim artar hər an* [9, s.138].

Bir sözlə, Nizaminin əsərləri başdan-başa hikmətlə dolu, nəsihətamiz fikir və düşüncələrlə zəngindir. O yazır:

*Sənətini danan bir də sağalmaz,*
*Çərşənbə cinlisi ağıllı olmaz* [5, s.61].

Şairin əsərləri ilə tanışlıq zamanı onun işıqlı ideyalar vurğunu, insanlara sevgi və məhəbbətlə dolu olduğu aydın görünür. Nizami əsərlərində zülmə nifrətini, azadlığa rəğbətini göstərməkdən ötrü həmişə insanların azad yaşamasını arzu edərək yazır:

*Özünə ad qoyanda da toxucu qoy, dəmirçi yox,*
*Dəmir yonsan, heç olmazsa açar düzəlt, nəinki ox,*
*Bu açarla zindanı aç, zəncirləri qır, yerə at!*
*Bu açarla zindanları qıfıllayıb şadlıq yarat!* [6, s.146]

Nizaminin "Xəmsə"si dünyada geniş yayıldığından ondan ilhamlanan şairlər ordusu formalaşdı, maraqlı, yaddaqalan əsərlər yazıldı. Eləcə Şərq xalqları ədəbiyyatında XIII-XX əsrlər aralığında Nizami mövzuları əsasında 300-ə yaxın yazarın 600-dən çox əsəri meydana gəlmişdir. Görkəmli Azərbaycan şərqşünası Qəzənfər Əliyevin "Şərq xalqları ədəbiyyatında Nizami mövzu və süjetləri" adlı kitabında oxuyuruq ki, "bütün toplanan və bu işə yerləşdirilən materiallar yalnız Şərq xalqları arasındakı mədəni əlaqələrin deyil, həm də güclü humanist ideyalarla zəngin dahi Azərbycan şair və filosofu Nizami Gəncəvinin ədəbi irsinin əsrlər boyu müxtəlif xalqların mənəvi yaxınlaşmasına səbəb olmasının göstəricisidir [18, s. 27].

Əsərləri şairin mükəmməl mədrəsə təhsili gördüyünü yəqin etməyə əsas verir. Məntiq, tibb, hüquq, astronomiya və bununla əlaqədar astrologiya və coğrafiya şairin müraciət etdiyi sahələr idi. Nizami xüsusən tarix, fəlsəfə və fiqh elmlərini diqqətlə öyrənmişdi [2, s.473]. Bu qeydlər Gəncənin həm də XII əsrdə bir elm, mədəniyyət mərkəzi olduğunu da təsdiq etməkdədir.

XII əsrdə zəngin kitabxanaları, mədrəsələri olan Gəncə eyni zamanda dərin zəka və biliyə malik mütəfəkkir, alim və müəllimlərin də vətəni olmuşdur. Heç təsadüfi deyil ki, məşhur Azərbaycan şərqşünası Rüstəm Əliyev Nizami Gəncəvi haqqında danışarkən qeyd edir ki, "*Şairin əsərlərindən məlum olur ki, o, Bibliya və xristian ədəbiyyatı ilə tanış imiş. Görünür, bu işdə ona mənşəcə gürcü, yəhudi, yunan olan və daim Gəncədə yaşayan bir çox xristian alimləri kömək etmişlər. Axı Gəncə ta qədimdən beynəlmiləl şəhər kimi şöhrət tapmışdır*" [3, s.35]. Deyilənləri nəzərə alaraq söyləyə bilərik ki, əslində Nizami kimi dahi şəxsiyyətin XII əsrdə Gəncədə yetişib parlaması da təsadüfi deyildi. Çünki Gəncə Nizamidən öncə də sözə, sənətə dəyər verilən yer olmuş və bu şəhərdə yaşayıb-yaradan ziyalı alimlərin fəaliyyəti daha sonralar dərin zəka sahiblərinin, böyük sənətkarların meydana gəlməsinə zəmin yaratmışdır.

Qədim tarixi, yüksək mədəniyyəti, incəsənəti və dahiləri ilə şöhrətlənən Gəncə haqqında bu günədək bir sıra mənbələrdən məlumat almışıq. Bədii sözlə Gəncənin poetik salnaməsini yaradan başda dahi Nizami Gəncəvinin "Xəmsə"si olmaqla müxtəlif dövr şairlərin yaradıcılığı bu mənbələrin ən dəyərlisidir. Azərbaycan poeziya nümayəndələrinin əksəriyyətinin yaradıcılığında Gəncə şəhərinə həsr olunmuş nümunələrə rast gəlmək mümkündür. Xüsusilə də bu qədim mədəniyyət və incəsənət mərkəzində doğulub-yaşayan sənətkarlar yurdun tarixini, zəngin mədəniyyətini, özünəməxsus məziyyətlərini, rəmzlərini əks etdirən şeirlər yazmışlar. Çağdaş Azərbaycan poeziyasında da qədim yaşayış məskəni, Nizami yurdu Gəncəyə, onun rəmzlərinə, dahi sənətkarlarına həsr olunmuş şeirlər az deyil.

Belə şairlərdən biri **Aydın Murovdağlıdır.** O, müasir Azərbaycan poeziyasının bir qütbü kimi formalaşan vətənpərvərlik lirikasının gözəl nümunələrini qələmə alan şairlərdəndir. Aydın Murovdağlı öz ustadlarına dərin hörmət bəsləmiş, onlardan öyrəndiyini, vətənin söz sərraflarına olan hörmətini bir şeirində belə ifadə etmişdir:

İlahi, Həsənoğluyam, Əbül-Üla Gəncəviyəm,
Şahavatam, Urmaviyəm, Xəttat Nəzzamın qəlbiyəm,
Nənəm Məhsəti fəhmiyəm, babam Nizami təbiyəm,

Xaqanitək didərginəm, hər gündə ölən şairəm! [12, s.2-3]

Aydın Murovdağlı yaradıcılığında Nizami yurdu Gəncənin ədəbi mühiti misilsiz rol oynamışdır. Bu şəhərə olan vurğunluğunu şair "Gəncəmizə" adlı şeirində belə ifadə edir:

Çağırdım, daş dövründən gəldi səsi Gəncəmizin!
Can verib tarixlərə gül nəfəsi Gəncəmizin!

Şair qələmə aldığı misralarda adı Gəncə ilə bərabər çəkilən tarixi qəhrəmanlarımız olan Tomrisin, Usta Bəndərin, Comərd Qəssabın, Cavad xanın adları ilə birgə Gəncə adını nisbəsində daşıyan dahi mütəfəkkir Nizami Gəncəvini də şair qələminə məxsus poetik ifadələrlə belə təsvir etmişdir:

Fəxr elə, gəncəlidir, cahanın söz peyğəmbəri,
Nizami Gəncəvidi müqəddəsi Gəncəmizin!

Murovdağlı bu şeiri ilə oxucuya sanki qədim, ulu Gəncənin tarixini vərəqlədir. İstedadlı şair hər bir misrada elə bədii ifadələrdən istifadə edir ki, insan qəhrəman şəhərin şanlı tarixini öz gözləri ilə görürmüş kimi həyəcanlanıb, qürurlanır. A.Murovdağlı Sonda isə Gəncənin tayı, bərabəri yoxdur deyərək şeiri tamamlayır.

Ey Murovdağlı, axır qiymətini verdin onun,
Tay olmaz bir daşına Yer Kürəsi Gəncəmizin! [11, s.6]

**Novruz Gəncəli.** Gəncə ədəbi mühitinin tanınmış nümayəndələrindən biri də Novruz Gəncəlidir. Şairin yaradıcılığında Gəncənin simvolunu, möhtəşəmliyini əks etdirən Göygöl, Kəpəz yaddaqalan cizgi və rənglərlə təsvir olunur:

Kəpəzin vüqarı
Səfalı Göygöl.
Öz gözətçisinə
Vəaflı Göygöl [13, s.214-215].

Biz Kəpəz, Göygöl obrazlarını müəllifin böyük Nizaminin 800 illiyinə həsr etdiyi "Şairin arzusu" poemasında da görə bilərik. Şair yazır:

Kəpəz baş qaldırmış göyə, günəşə,
Sarmaşıq tək ona sarılmış meşə.
Sızır göz yaşı tək döşündən bulaq,
Bulağın yanında məclisə bir bax [13, s.282].

Müəllif burada böyük Azərbaycan şairinin arzusunu dilə gətirmək istədiyini belə təsvir edir:

Həsrətlə dağların qoynuna baxdı,
Baxdı quzu kimi yatan Göygölə.
Yaşıl adalara, çiçəyə, gülə,
Sancıldı gözləri Kəpəzdə durdu [13, s.286].

Çünki Nizami yeni əsərini ana dilində yazmaq istəsə də hökmdar onu fars dilində yazdırmaq arzusundadır. Şair bu arzusunun çin olmayacağını yaxşı bilir, buna görə ona doğma olanlara, yəni Göygölə, Kəpəzə baxır, onlardan nicat istəyirdi.

**Ələkbər Ziyatay.** Gəncədə doğulan nəğməkar şair Ələkbər Ziyatay şəhərin füsunkar təbiətinə, bu söz məbədindən dünyaya nur saçan dahi Nizami Gəncəviyə bağlılığını səmimi hisslərlə poeziyasında əks etdirmişdir. Nizami Gəncəvi kimi Gəncənin rəmzi olan Göygölün Nizaminin dövründən tanındığını, onun şöhrətinin dildən-dilə düşdüyünü bir nümunədə belə əks etdirir:

Nizamiylə bir zamandan
Adın düşüb dilə, Göygöl!
Aşıqlar söz açıb səndən,
Mizrab vurub telə, Göygöl! [17, s.121]

Şeirlərinin birində "Qədim şıx düzünə gələsi olsan, Bir türbə görərsən ucalıb göyə" [17, s.32] deyən şair ulu Gəncənin qədim şıx düzündə ucalan Nizami Gəncəvi məqbərəsini nəzərə çatdırır. Bu dahi şəxsiyyətin kökünün bağlı olduğu Gəncə torpağı ilə bərabərləşdiyini diqqətə çatdırır.

**Zeynal Xəlil.** Gəncəli şair Zeynal Xəlilin poeziyasında da Gəncə torpağının yetirdiyi söz ustadlarına, doğma yurdun rəmzi olan xan çinara hörmət və məftunluğu xüsusi bir yer tutur.

Boz çinar, xan çinar!
Keçmişləri ananda,
Xəyal çatır dadıma,
Nədəndirsə Nizami,
Vazeh düşür yadıma.
Ey boz çinar, xan çinar!
Sən bu qədim Gəncənin
Ən vüqarlı yarısan,
Sən bizim babaların
Sınmayan budağısan,
Ey boz çinar, xan çinar! [10, s.48]

Şairin dahi mütəfəkkir Gəncəli Nizaminin adını "Xan çinar"a həsr etdiyi şeirdə anması fikrimizcə rəmzi bir məna daşıyır. Belə ki, kökü ilə Gəncə torpağına bağlı olan qoca çinar kimi Nizami Gəncəvinin də köklü gəncəli olmalısa işarə edir.

Z.Xəlil // Xeyr, ayrılmayır könül Gəncədən, // Onun havasıyla böyümüşəm mən.//- misrasını özünün "Şairin yuxusu" pyesində şeyx Nizaminin dili ilə söyləyir. Bu misralar dahi şairin "İskəndərnamə" əsərindəki bir parçanı xatırladır:

*نظامی که در گنجه شد شهْربند*
*مباد از سلام تو نابهرمند!* [19, s.773]

*Nizami tutmuşdur Gəncədə məkan,*
*O, məhrum olmasın salamlarından* [8, s.29].

Gəncənin adını dünyada tanıdan söz xəzinəsinin sahibi Nizami Gəncəvini hər zaman yad edən Zeynal Xəlil yuxarıda adı çəkilən pyesinin sonunda isə Xaqani Şirvaninin dilindən dahi mütəfəkkirin adında olduğu kimi Gəncə və Nizamini bir daha bərabərləşdirərək belə yazır:

Gəncə də gözəldir!.. Hər tərəf, hər yer,
Bir xoş mənzərədir, bir gözəl şeir.
Bəşər ömrü boyu deyəcək məncə;
Yaşasın Nizami! Var olsun Gəncə! [10, s.258]

**Sədnik Paşa Pirsultanlı**. Folklorşünas professor, istedadlı şair Sədnik Paşa Pirsultanlı Nizami vətəni Gəncənin təbii mənzərəsinə, tarixinə, dahilərinə işarə edərək, bu şəhərə olan məhəbbətini, bağlılığını "Gəncə bayatıları" başlığı ilə verilmiş misralarında qələmə almışdır.

İgidlərin izi qalıb,
Şairlərin sözü qalıb,
Hər şairdən bir nişanə,
Nizaminin özü qalıb.
Bəzəmişəm təzəmi,
Doldurmuşam kuzəmi.
Ünvanımı soruşsan,
Gəncə, çinar, Nizami [14, s.623].

Sədnik Paşayevin bayatıda sözünü bizə miras qoyub gedən dahi Nizaminin adını Gəncə və Çinarla birlikdə işlətməsi geniş anlama, mənaya malikdir. "Gəncə, çinar, Nizami" ardıcıllığını nəzərə alaraq belə izah verərdik ki, Gəncə çinar kökü kimi qəlbi, sevinci, kədəri torpağa bağlı olan insanların, adını dünyada tanıdan Nizami Gəncəvi kimi dahilərin Vətənidir. Bu xüsusiyyətlərlə fərəh duyan şair oxucusuna öz ünvanını da qürurla Gəncə deyə tanıtmışdır.

**Bahadur Fərman.** Müəllif şairliyi yüksək qiymətləndirir və hər cızma-qara edənlərin şair olmadığını qeyd edir. Özünün də şair olmağına hələ xeyli vaxt lazım gəldiyini yazarkən sanki söz səltənətinin hökmranı olan Nizami Gəncəvinin ustadlığı qarşısında acizliyini bildirir. Dahi mütəfəkkirin "Şeirdən ucalıq umma dünyada, çünki Nizamiylə qurtardı o da" sözünü təsdiqləyərək şairliyin uca zirvə olduğunu deyir və hər kəsin, hətta özünün də o zirvəyə yetə bilmədiyini söyləyir:

Bir dəli dərvişəm, sözüm həqiqət,
Düşünmə, boş gəzən, ya da veyiləm.
Şairlik ən uca zirvədir, fəqət,
Mən şair deyiləm, şair deyiləm [4, 10].

**Rübaili**n poeziyasında Gəncəyə böyük məhəbbət və ehtiramla bərabər böyük sevgi var. Müəllif fəxrlə şəhərin qədimliyini özünəməxsus bir şəkildə belə təsvir edir:

Gəncə Nizamiylə ucalan zaman,
Dünya xəritəyə alınmamışdı.
Nyu-Yorkun yerində o zaman, inam
Hələ qəsəbə də salınmamışdı [1, s.148].

Şair Nizami dühasının da Gəncəyə şöhrət və hörmət gətirdiyini, bu böyük şairin də formalaşmasında Kəpəz, Göygöl, Çinar fenomenlərinin rolu olduğunu belə göstərir:

Gör neçə ildir ki, yazıb-pozurlar,
Dünya heyran qalıb, bu qüdrət nədir?
Yüz cür çevirirlər, yüz cür yozurlar,
Nizami dühası hələ zirvədir.

Kəpəz Nizaminin söz heykəlidir,
Göygöl qəlb aynası – safdır, incədir.
Çinar Nizaminin öz heykəlidir,
Harda çinar varsa, ora Gəncədir [1, s.148].

Müəllifin burada Nizami şeirini Kəpəzə, Göygölü qəlb aynasına, Çinarı şairin özünə bənzətməsi də bir özünəməxsusluqdur. O, bununla Nizami poeziyasının da uzunömürlü olduğunu, sözünün qeyri-adi hikmətlər qaynağını xatırlatdığını əks etdirir.

Müəllif şeirlərinin birində Gəncə sevgisinin elə Azərbaycan olduğunu da təsvir edir. Yəni Gəncənin də Azərbaycanın şöhrətini və adını dünyaya yaydığını deyir. Şair yazır:

Uçan quşa bənzər Azərbaycanım,
Ürəyi Gəncədir, nə üçün danım.
Bir qanad Məhsəti, biri Nizami,
Biri ürəyimdi, o biri canım [1, s.298].

Şairin burada Məhsəti və Nizaminin Azərbaycanın qoşa qanadları kimi göstərməsi, bu böyük şairlərin sayəsində Azərbaycanın uzaqlarda tanınmasını yada salır, bizə bir atalar sözünü xatırladır: "Quş qanadla uçar".

**Nigar Rəfibəyli.** Gəncədə doğulub, uşaqlıq və gəncliyi bu söz, sənət məbədi olan şəhərdə keçən Nigar Rəfibəyli Gəncəli Şeyx Nizamini şeirinə qəhrəman etmiş və dahi mütəfəkkirin yaradıcılığına böyük qiymət verərək "Nizamiyə" adlı poetik nümunədə yazmışdır.

Sənin ömür karvanının əbədiyyət oldu yolu:

Çəkdiyi yüz – söz incisi, hər addımı şərəf dolu.
Səkkiz yüz il yaşatmışdır səni sənət, əmək, hünər.
Şöhrətinlə parlamışdır vətənində mavi göylər [15, s.193].

Şairə dörd misrada sanki Nizami Gəncəvinin həm həyatına, həm də bənzəri olmayan ədəbi irsinə işarə edərək dahi mütəfəkkirin əbədiyaşarlığının səbəbini açıqlamışdır. Ömür boyu heç kəsə baş əyməyən şairin həyatını şərəflə yaşadığını, əsərlərində hər zaman sənətin, əməyin, hünərin təcəssümü olan sadə xalqı tərənnüm etdiyini və nəticədə şəxsiyyəti və yaradıcılığı ilə şöhrətlənərək Vətənini də dünyaya tanıtdığını əks etdirmişdir.

Beləcə, Nizami yurdu Gəncədə Azərbaycan ədəbiyyatı tarixində özünəməxsus yeri olan, yuxarıda yaradıcılıqlarından nümunələri təhlil etiyimiz görkəmli ədiblərimizlə yanaşı yüzlərlə istedadlı şairlər bu ədəbi mühitin zənginləşməsində, Gəncə şəhərinin şöhrətinin, sədasının yayılmasında mühüm rol oynamışlar. Gəncənin doğmalığı, qədimliyi, xalqımızın könlündə yer tutması ilə yanaşı, şəhərin rəmzləri olan Göygöl, Kəpəz, Çinar kimi bu şəhərdə doğulub boya-başa çatan, yaşayıb-yaradan Nizami Gəncəvi kimi dahilərimiz də kökü bu torpağa bağlı olan hər şair palitrasında özünəməxsus tablolarla, mənzərə və yaddaqalan detallarla yaradılmışdır.

ƏDƏBİYYAT


1. Allahverdiyev, R. Seçilmiş əsərləri. Şeirlər / red. İ. İsaq / R.Allahverdiyev. Bakı: Zərdabi nəşriyyat MMC, 2021. 424 s.
2. Azərbaycan ədəbiyyatı tarixi: [6 clddə] / Red. hey. sədri M.Kərimov. Ön söz, A.Rüstəmova. Bakı: Elm, c.2. 2007. 632 s.
3. Əliyev, R. Nizami / R.Əliyev. Bakı: Yazıçı, 1991. 112 s.
4. Fərman, B. Mən şair deyiləm (şeir) // Ədalət. 2014, 20 dekabr. s.10
5. Gəncəvi, N. Leyli və Məcnun / tərc. ed. Səməd Vurğun; M.İbrahimov, M.Sultanov. İzahların müəllifi. M.Əlizadə / N. Gəncəvi. Bakı: Yazıçı, 1982. 302 s.
6. Gəncəvi, N. Lirika / Ön sözün müəl. və elmi red. X.Yusifli ; [tərc. ed. C.Xəndan [və b.] ; buraxıl. məsul Ə.Güləliyev; tərtibatçı-rəssam N.Əliyeva] / N.Gəncəvi. Bakı: Lider, 2004. 160 s.
7. Gəncəvi, N. Sirlər xəzinəsi / red. V.Aslanov, Ə.Mirəhmədov; fars dil. tərc. ed. S.Rüstəm, A.Sarovlu; ön sözün, izahların müəllifi və elmi red. R. Əliyev / N.Gəncəvi. Bakı: Elm, 1981. 194 s.
8. Gəncəvi, N. İsgəndərnamə / Ön sözün müəl. və elmi red. X.Yusifli/ N.Gəncəvi. Gəncə: GDU, 2012. 664 s.
9. Gəncəvi, N. Sirlər xəzinəsi / tərc. ed. S.Rüstəm, redaktor: Ələkbər Ziyatay / N.Gəncəvi. Bakı: Azərnəşr, 1953. 164 s.
10. Xəlil, Z. Seçilmiş əsərləri / tərt. Z. Xəlilova / Z.Xəlil. Bakı: Öndər, 2004. 264 s.
11. Murovdağlı, A. Gəncəmizin (şeir) // Ədalət. 2015, 26 iyun. s. 6
12. Murovdağlı, A. Üsyanı edam etdilər Seyyid Əli Nəsimidə! (şeir) // Ədəbiyyat. 2020, 11 yanvar. s. 2-3
13. N. Seçilmiş əsərləri / red. M.Şükür / N.Gəncəli. Bakı: Azərnəşr, 1974, 296 s.
14. Pirsultanlı, S.P. Pirsultan pinarı (şeirlər) / S.P.Pirsultanlı. Gəncə: Pirsultan, 2007. 688 s.
15. Rəfibəyli, N. Seçilmiş əsərləri /Tərtib edən: Anar / N.Rəfibəyli. Bakı: Şərq-Qərb, 2004. 392 s.
16. Verdiyeva, T. Nizami Gəncəvi "Xəmsə"sində Gəncə // Bakı: Risalə. Araşdırmalar toplusu, 2017, 1(13), s.94-103
17. Ziyatay, Ə. Şeirə dönən duyğular. Şeirlər / Red. S.Mustafayev / Ə.Ziyatay. Bakı: Yazıçı, 1983. 153 s.

18. Алиев, Г.Ю. Темы и сюжеты Низами в литературах народов Востока / Г.Ю.Алиев. Москва: Наука, 1985. 333 стр.
19. کلیات حکیم نظامی گنجوی. به کوشش و ویرایش: کاظم عابدینی. انتشارات آدینه سبز، تهران -۱۳۹۱
(Kolliyat-e Həkim Nizami Gəncəvi. Be kuşəş və virayəş: Kazım Abdini. Enteşarat-e Adine səbz, Tehran-1391, s.773)

***Тарана ВЕРДИЕВА***

**ГЯНДЖА И НИЗАМИ ГЯНДЖАВИ В XX ВЕКЕ И СОВРЕМЕННОЙ ПОЭЗИИ АЗЕРБАЙДЖАНА**
***РЕЗЮМЕ***

*Ключевые слова:* Низами Гянджеви, поэзия, поэт, литературная среда, символ

В статье анализируются поэтические примеры образа Гянджи и Низами Гянджеви в поэзии XX века и современной Азербайджанской поэзии. Поэты, чьи произведения являются примером, входят в число наших писателей, занимающих особое место в Азербайджанской литературе XX века. В литературном наследии этих поэтов образы Гянджи и Низами Гянджеви нашли свое художественное отражение как символ самовыражения.

***Tarana VERDIYEVA***

**GANJA AND NIZAMI GANJAVI IN THE 20TH CENTURY AND CONTEMPORARY POETRY OF AZERBAIJAN**
***SUMMARY***

*Key words:* Nizami Ganjavi, poetry, poet, literary environment, symbol

The article analyzes poetic examples of the image of Ganja and Nizami Ganjavi in the poetry of the 20th century and modern Azerbaijani poetry. The poets whose works are an example are among our writers who occupy a special place in the Azerbaijani literature of the 20th century. In the literary heritage of these poets, the images of Ganja and Nizami Ganjavi found their artistic reflection as a symbol of self-expression.

***Daxil oldu: 20.11.2024-cü il***